Sivilizasiya, Cild 13, № 5, 2024 (61)
Bakı Avrasiya Universiteti

**UOT 82-31**

# K.İŞİQURONUN ROMANLARININ İDEYA ÖZƏLLİKLƏRİ
## (*"Məni heç vaxt tərk etmə" romanı əsasında*)

**Mətanət MƏMMƏDOVA**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 7 avqust 2024; çapa qəbul edilmişdir: 19 sentyabr 2024; online-da çap edilmişdir: 11 dekabr 2024.

Received: 7th of August, 2024; accepted: 19th of September, 2024; published online: 11th of December, 2024.

**Açar sözlər:** *Kazuo İşiquro, klonlaşdırılma, distopiya, donor, hiss və ruh, intellekt, həqiqi insan*

### Giriş

Nobel mükafatı laureatı (2017) Kazuo İşiquro əsərlərini fantastik, tarixi fantastika, antiutopiya janrlarında qələmə almışdır. O, əsərlərini ingilis dilində qələmə almışdır. Onun həyata baxış bucağı tamam fərqli idi. Antiutopiya yaxud da distopiya janrında mükəmməl əsərlər qələmə almışdır. Bu əsərlərdən biri də "Məni heç vaxt tərk etmə əsəri idi" (5, s. 3). Kazuonun əsərlərinin quruluşunun özünəməxsus xüsusiyyətləri vardır. O, fərqli yazı stilinə görə şöhrət qazanmışdır. Əsərlərində əsasən birinci şəxs təhkiyəçidən istifadə edir. Onun əsərlərində təhkiyəçi elə obrazlardan biri olur, bunlara həmçinin güvənilməz (unreliable) təhkiyəçi də deyirlər (7, s. 9). Bu əsərlərdən biri də "Məni heç vaxt tərk etmə" romanıdır.

### 1. "Məni heç vaxt tərk etmə" romanının ideyası: antiutopik janr

"Məni heç vaxt tərk etmə" romanı antiutopik janrda qələmə alınmış, 30-lu yaşlarında olan Keti adlı gənc qadının xatirələri əsasında yazılıb. Əsər XX əsrin sonlarında, insanların yetkinlik yaşına çatdıqdan sonra orqanlarını bağışlamaq üçün klonlaşdırıldığı və yetişdirildiyi İngiltərədə baş verir. Bu "klonlar" internat tipli müəssisələrdə yetişdirilir (10). Onun uşaqlığı və yeniyetməliyi Heylşemdəki qeyri-adi internat məktəbində keçib. Hadisələr XX əsrin sonlarında, 1990-cu illərdə, insanların orqan transplantasiyası əməliyyatları üçün canlı donor kimi klonlaşdırılıb yetişdirilməsinin geniş vüsət aldığı illərdə baş verir. Keti və onun internatdakı dostları, məhz belə donor rolunda çıxış etməyə əla namizədlər sayılırlar. Onlar donor olana qədər müəyyən müddət "köməkçi" rolunda çıxış etməyə, artıq donor olmuş adamların qayğısına qalmağa məhkumdur. Adi insan həyatının ümumiləşdirilmiş metaforası kimi düşünülən romanda məhəbbət, tale, ruh azadlığı məsələləri ön plana çəkilib. Əsərdə Keti, Rut və Tomminin arasındakı dostluq, sevgi, qısqanclıq, bağlılıq kimi məsələlər də əsərdə öz əksini tapmışdır. Əsərin distopik janrda olması ona xüsusi bir məna verir. Öz dönəminin digər əsərlərindən fərqləndirən özəllik isə bu janrda olması idi. "Utopiya anlayışı yeni bir ölkənin təsəvvüründə hər şeyi mükəmməl təsəvvür etdiyi halda, əks-utopiya/distopiyada isə əksinədir. Dini inanclarla müqayisədə utopiya cənnəti, distopiya isə cəhənnəmə uyğun gəlir. Ona görə də müqəddəs kitablarda cənnət deyən zaman utopiya anlayışı önə çıxdığı halda, distopiyaya cavab olaraq cəza

[*] *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* metanetmemmedova2023@gmail.com
**https://doi.org/10.30546/25194011.2024.13.5.0178**

olaraq göstərilən cəhənnəmdən istifadə edilir. Utopiyada sonsuz xeyir, distopiyada sonsuz şər var. Odur ki, nə qədər pis olsa da, distopiya, xüsusilə XX əsrin əvvəllərindən bu günə qədər yazılan ədəbi əsərlərdə utopiyadan daha qabarıq yer tutur" (5, s. 2).

Distopiya utopiyadan fərqli olaraq, xoşagəlməz və pis kimi təsəvvür edilə bilən bir "yerə" və ya "vəziyyətə" aiddir. Burada "arzu olunan" bir qavrayış olduğu halda "konsepsiya" və ya "yuxu" sözlərindən, yaxud "kabus" sözlərindən istifadə etmək daha məqsədəuyğundur. Bəşəriyyətin sivilizasiyasının yuxusuna girən səhər kabusa oyanmaq kimi ümumiləşdirə biləcəyimiz distopiya, ölümsüzlük axtaran insan övladının oğlu-qızı üçün birdən-birə hər şey cəhənnəmə çevrilir. Distopiya mövzusundan bəhs edən əsərlər mövcud strukturdan "yaxşı" heç nə təklif etmir; Əksinə, mövcud quruluşun inkişaf etdiyi və təbii olaraq yönləndirildiyi daha pis mənzərəni təqdim edir. Bu baxımdan genetik manipulyasiyalar, böyük dağıntılar, zalım rejimlər, siyasi-ictimai çöküşlər, təbii fəlakətlər distopiya mövzusuna toxunan əsərlərin əsas mövzusunu təşkil edir. Belə distopiya mövzularından biri də insan genlərindən istifadə edərək, onların klonlarını yaratmaq məsələsidir. Kazuo "Məni heç vaxt tərk etmə" əsəri vasitəsilə bizi distopik dünyayla tanış etdi (5).

Əsərdəki bütün hadisələr Ketinin dili vasitəsilə oxuculara çatdırılır. Keti "köməkçi" olduğu zaman köhnə xatirələrə qərq olur, oxucular onun və Heylşemdəki dostlarının həyatı ilə tanış olmağa başlayırlar. Heylşemdə bir-birlərinə olan rəftarları, müəllimlərinin, tərbiyəçilərinin onlara olan davranışları və onları gələcəyə necə hazırlaması əsərdə incəliklərinə qədər təsvir olunmuşdur. Heylşemdəki şagirdlərin hər biri "Xüsusi" şagirdlərdir ancaq bunu şagirdlərin özləri tam mənada bilmirdilər. Heylşemdəki tərbiyəçilər onları real həyatın çirkin üzləri ilə tanış etməkdən çəkinirdilər, onlara tam məlumat verilməmişdir və şagirdlər onları qarşıda nəyin gözlədiyini tam bilmirdilər. Tərbiyəçilər şagirdlərə "insanların" onları necə gördüyünü, məxluq kimi adlandırıb, sadəcə istifadəyə yararlı varlıqlar kimi baxdıqlarını demək istəmirdilər. Heylşemi şagirdlər üçün cənnətə çevirməyə çalışırdılar, çünki Heylşemdən sonra əsl cəhənnəmin nə demək olduğunu şagirdlər görəcəkdi. Heylşemdə hər zaman onlara deyilən bir söz olur: "Siz Heylşemin şagirdlərisiniz. Siz.... Xüsusi şagirdlərsiniz. Bədənlərinizə yaxşı qulluq etmək hər biriniz üçün çox vacibdir" (2, s. 88). Heylşemdən məzun olduqdan sonra Tomi və Keti, Madam və miss Emili ilə görüşən zaman miss Emili onlara əsl reallıqları (onlardan gizlənən) danışmağa başladı və onları həyatın çirkin üzü ilə tanış etdi: "Uzun müddət insanlar guya orqanlarının qeybdən gəldiyinə və ya bir növ vakumda yetişdirildiyinə inanmağa üstünlük verirdilər. Uzun müddət kölgədə qaldığınıza görə insanlar sizin barədə düşünməmək üçün əllərindən gələni edirdilər. Düşünəndə isə sizin bizim kimi olmadığınıza inanırdılar. Onların gözündə siz insanlardan əksik varlıqlar idiniz, odur ki, əhəmiyyətiniz də yox idi. Qarşımızda orqan köçürməsi üçün donor tələb edən dünya var idi, hələ də var. Və həmişə sizi insan kimi görməyə maneə olan bariyerlər olacaq" (2, s. 317). Burdan da görüldüyü kimi yazıçının yaratdığı dünya distopik dünya idi, cəhənnəmə bənzəyirdi. İnsanlar öz yaratdıqları varlıqları özlərinə qurban edib, həyatlarını daha da uzun ömürlü etməyə çalışırdılar. Nəinki öləndən sonra, yaşayan zaman belə onları bir kənara atmışdılar. Varlıqları isə onlar üçün sadəcə "kölgədə" idi. Cəhənnəm bəlkə də insanların olduğu yerdə idi...

## 2. Klonlaşdırmanın XX əsrdə elmə və ədəbiyyata gəlməsi və nəticələri

Məni heç vaxt tərk etmə" romanı ilə başqa insanları həyatda tutmaq üçün klonlaşdırılmış insanların ölümə məhkum olaraq yetişdirilməsi üzərində distopik bir kainat yaradılır" (5, s. 9).

Biz klonlamanın nə olduğunu bilmədən, əsər haqqında tam bir fikirə sahib ola bilmərik. Bəs, klon nədir? "Klon mayalanmadan bir fərddən əldə edilən nəsil kimi müəyyən edilə bilər. Bioloqlar çox vaxt genetik olaraq eyni fərdlərin istehsalına istinad etmək üçün klonlaşdırma sözündən istifadə edirlər. Bu gün klonlaşdırma daha ümumi mənada istifadə

olunur. Buna misal olaraq, bir və ya bir neçə fərdin mayalanmadan əmələ gəlməsini göstərmək olar" (4, s.1).

İnsanın klonlaşdırılması, insanın genetik kimliyinin surətinin yaradılmasına verilən addır. Bu, insan toxumasının və hüceyrələrinin çoxalmasını nəzərdə tutan süni insan klonlamasına istinad etmək üçün istifadə edilən ümumi termindir. İnsanın klonlaşdırılması imkanları etik fikir ayrılıqlarına və mübahisələrə səbəb olub. Teorik olaraq, insan klonlaşdırılmasının iki fərqli versiyası müzakirə olunur. Bunlardan biri insanın tamamilə yenidən yaradılmasını nəzərdə tutur. Digəri isə bu elmin müalicəvi məqsədlər üçün istifadəsini araşdırır. Beynəlxalq hüquqda müalicə məqsədli klonlaşdırma qadağan edilmir. Məsələn, Avropa İttifaqının Əsas hüquqlar haqqında 2000-ci il (Nitsa) Xartiyasında müalicə məqsədli klonlaşdırma reprodurtiv klonlaşdırmadan fərqləndirilir. Qanunvericilik müalicə məqsədli klonlaşdırmanın bütün istiqamətlərdə tənzimlənməsini təmin etməlidir. İnsanın yaşamaq hüququnun çərçivəsi reproduktiv dölün mayalanmasına qədər genişləndirilməklə insan embirionunun hüquqi vəziyyətinə münasibətin dəyişilməsi və onun hüquqi, qanunvericilik müdafiəsi zərurəti meydana gəlmişdir (1).

"Məni heç vaxt tərk etmə" əsərində klonlama, müharibədən sonrakı dönəmdən başlamışdır. Dünyanın ehtiyacı olan orqanlara, insan ehtiyyatlarına cavab verən yalnız insanlar olduğu üçün, elm adamları insan toxuma və genlərini birləşdirərək "klonlama" prosesini həyata keçirtmişdilər. "Müharibədən sonra, 50-ci illərin əvvəllərində elmdə böyük hadisələr bir-birinin ardınca elə sürətlə baş verirdiki, dayanıb həssas suallar verməyə vaxt yox idi. Biz əvvəllər müalicəsi mümkün olmayan xəstəlikləri müalicə etmək imkanı əldə etmişdik. Prosesin qarşısını almaq mümkün deyildi. Xərçəngi müalicə olunan xəstəlik kimi qəbul edən dünyadan bu müalicəni bir kənara qoyub, yenidən qaranlıq günlərə qayıtmağı istəyə bilərdin? Geriyə dönüş yox idi." (2, s. 317). Heylşemdəki şagirdlər də klonlaşdırılmış şagirdlər idilər. Onlar öz orqanlarını "insanlara" verirdilər, çünki onların yaradılma məqsədləri elə bu idi, "xüsusi" şagirdlər dünyaya özləri üçün gəlməmişdi, insanların yaşaması və istifadəsi üçün yaradılmışdılar. "Robotlar" kimi. Əsərdə Rutun dilindən klonlaşdırılma məsələsini daha aydın görə bilərik: "Hamımız bilirik. Biz cəmiyyətin qalıqlarında yaradılmışıq. Narkomanlar, əxlaqsızlar, alkoqoliklər, avaralardan. Bəlkə də cinayətkarlar, lakin azı onların psix olmamasına diqqət yetirirlər. Biz bunlardan gəlmişik. Bunu hamımız bilirik, onda niyə dilə gətirmirik?" (2, s. 202).

Şagirdlərə adi insanlar kimi yaşamaq haqqı belə verilmirdi. Və ən təsirli hissəsi odur ki, "insanlar" onlardan qorxub, onlara əcaib varlıq kimi baxırdılar. Halbuki insanların yaşama səbəbi elə qorxduqları varlıqlar idi. İnsanlar kimlərin sayəsində yaşadıqlarını bilmək belə istəmirdilər. Onların hisslərinin olmadığını, ruhlarının olmadığını düşünürdülər. Heylşemin yaradılmasının səbəbi də elə bu idi. Əslində bu uşaqların belə ruhları, hisslərinin olduğunu insanlara göstərmək istəyirdilər. Bunun üçün Madam və Miss Emili çox çalışmışdır. Onlar hər il şagirdlərdən xüsusi bacarıqlarını göstərəcək fəaliyyətlərə qoşulmalarını tələb edirdilər. Şagirdlər burada rəsm çəkmək, toxuculuqla məşğul olmaq və s. kimi fəaliyyətlər ilə məşğul olurdular. Şagirdlər düşünürdülər ki, onların əl işləri toplanılıb "qalereya" ya qoyulur. Sonda isə Keti və Rut öyrənir ki, əslində "qalereya" deyə bir şey mövcud deyil. Əl işlərinin hamısı Miss Emili və Madam tərəfindən saxlanılırdı. Onlar şəkillər vasitəsilə uşaqların da əslində hisslərinin olduğunu sübut etməyə çalışırdılar. Sonda isə Heylşem bağlanmış və əziyyətləri qarşılıqsız qalmışdır. Miss Emilinin də qeyd etdiyi kimi "Dünya donorluq proqramının əslində necə işlədiyini bilmək istəmirdi, onlar şagirdlər və sizin böyüdüldüyünüz şərait barədə heç nə düşünmək istəmirdilər. Başqa sözlə əzizlərim, onlar sizlərin yenidən kölgəyə qayıtmağınızı istəyirdilər" (2, s. 319). İnsanlar necə uzun yaşamalarının arxasındakı o qeyri-humanist vəziyyəti görmək istəmirdilər. Klonların hansı çətinliklərdən keçib, necə psixologiyaya sahib olması

isə onları qətiyyən maraqlandırmırdı. “Klonlaşdırılaraq çoxaldılan şəxslərin mənəvi dünyalarının var ola biləcəyi ideyası önə çəkilir və yazar romanını elmi-fantastik janrın sərhədləri daxilində yerləşdirir. Qəhrəmanların öz taleyini acizliklə qəbul etmələri mümkün distopiya fəlakətinin qarşısını almaq üçün bir sədd çəkir” (5, s. 6). İnsan kökünün davam etməsi üçün yaratdığı hər şeyi özünə qurban təyin edir. Bu isə bizi transhumanizmə gətirib çıxarırdı. Digər mərhələyə keçmək üçün hər şeyi qurban vermək...

Şagirdlər Heylşemdən məzun olduqdan sonra xüsusi Kotteclərə yerləşdirilirdi. Keti, Rut və Tommi üç yaxın dost eyni kottecə düşdükdən sonra həyatları tamamilə dəyişir. Onlar yeni təcrübələrə addım atırlar. Kotteclərdə əsl dostluq, sevgi, qısqanclıq kimi duyğuları getdikcə formalaşmağa başlayır. Sanki getdikcə insanlaşırdılar. İnsanlara qarışırlar. Bu onları xoşbəxt edirdi. Kotteclərdən sonrakı mərhələ “baxıcı” mərhələsi idi. Onlar donor olana qədər bu vəzifəni yerinə yetirirdilər. Keti onlar arasından “baxıcı” kimi işləmək üçün müraciət edən ilk donor idi. O, 11 ildən çox, bu işdə işləyirdi. Keti son orqanlarını verib əldən düşüb, ölənə qədər öz yaxın dostu Rut və Tommiyədə baxıcılıq etmişdi. Onlar “baxıcılıq” müddəti ərzində yeni xatirələr toplamağa başladılar.

### 3. Robota bənzər insanlar və insana bənzər robotlar

Elmi və texnoloji inkişaflar bir çox mənəvi, dini və ən əsası hüquqi problemlər yaradır. Məsələn, robotlar müasir qullara çevriləcəkmi? Süni intellektin hüquqi statusu necə olacaq? O, insanın mülkü olacaq, yoxsa qanun qarşısında insan kimi müəyyən ediləcək? Tarixən köləlik və qaradərililərin insan sayıla biləcəyi ilə bağlı mübahisələr çox qısa bir müddət əvvələ qədər mövcud idi. Bir çox mənəvi problemlər də var. Bunlar hüquqi problemlərə çox yaxındır... Məsələn, bir klonun əmlakını oğurlasanız, onların qanun qarşısında heç bir hüquqları yoxdursa, nə olar? Klonu döysəniz və ya bıçaqlasanız və onların heç bir hüququ yoxdursa, nə baş verir? Klon hüquqları mühüm müzakirə mövzusudur... Klonlar mülkiyyət, heyvan növü, yoxsa insan hesab olunacaq? Bu suallara cavab tapmaq günümüzdə çox müəmmalı məsələdir. Çünki belə bir hüquq hal-hazırkı dünyada mövcud deyil. İnsanı düşündürən tək məsələ: digər mərhələyə keçid etməkdir.

Ağıllı maşınlar (robotlar) yavaş-yavaş qarşılaşmağa başladığımız, robotlar haqqında bildiklərimiz və ya bildiyimizi düşündüklərimizin əksəriyyəti bu texnologiya ilə real qarşılaşmalarımızdan deyil, bədii ədəbiyyatda gördüklərimizdən irəli gəlir. Elmi fantastikanın robot və süni intellekt dizaynı əslində təkcə bizə, sahə xaricində olan insanlara deyil, bu sahənin tədqiqatçılarına da birbaşa təsir göstərir (6, s. 4). Əsərdəki “klonlaşdırılmış” insanları günümüzdə, demək olar ki, hər yerdə asanlıqla görə biləcəyimiz “robotlar” ilə necə bənzədiyinə şahid oluruq. İnsanlar tərəfindən işin daha da rahat olması, zamandan daha səmərəli, əlverişli istifadə üçün robotlar yaradılmışdır. Robot avtonom və ya əvvəlcədən proqramlaşdırılmış tapşırıqları yerinə yetirə bilən elektromexaniki cihazdır. Daha aydın desək, robotlar elektron və mexaniki vahidlərdən ibarət olan, anlama qabiliyyətinə malik olan və proqramlaşdırıla bilən cihazlardır. Başqa sözlə, robotlar canlıların funksiya və davranışlarını təqlid edə bilən, fiziki qabiliyyətlərə və süni zəkaya malik, fənlərarası elementləri ehtiva edən mühəndislik məhsullarıdır. Robotlar birbaşa operatorun nəzarəti altında və ya kompüter proqramının nəzarəti altında müstəqil işləyə bilər. Robotlar deyildikdə ağıla, insanabənzər maşınlar gəlsə də, çox az robot insana bənzəyir. İnsanabənzər robotlar çox vaxt insanlar kimi görünən və hərəkət edən robotlar kimi düşünülsə də, bu, belə deyil. İnsanabənzər robot ideyası təbii ki, insanlarla tamamilə eyni olan robotları əhatə edir, eyni zamanda qeyri-müəyyən humanoid forması olan istənilən növ robotu da əhatə edir. Bu robotlar insan bədəninə bənzəyən bədən formasına sahib olmaq üçün hazırlanmışdır. İnsanabənzər robotlarda hələ insan bədəninin bəzi xüsusiyyətləri yoxdur. Bunlara təhlükəsizliyi (robotun özünə və insanlara) və hərəkətlərin artıqlığı, yəni

daha çox sərbəstlik dərəcəsi və buna görə də geniş tapşırıq əlçatanlığı təmin edən strukturlar daxildir. Bu xüsusiyyətlər insanabənzər robotlar üçün arzuolunan olsa da, planlaşdırma və nəzarətə daha mürəkkəblik və yeni problemlər gətirəcək. Robototexnika elmində "bütün bədənə nəzarət sahəsi" bunlarla məşğul olur, həmçinin məsələləri və azadlıq dərəcələrinin düzgün koordinasiyasını həll edir, məsələn – dərk etmək. Robotların bacarıqları onların yaradılmasında istifadə edilən süni intellektin səviyyəsindən çox asılıdır. Əgər robotun yalnız hərəkətlərini və qərarlarını gücləndirmək üçün istifadə edilən sadələşdirilmiş alqoritmi varsa, o zaman robot məhdud imkanlara malik olacaqdır. Bununla belə, daha inkişaf etmiş süni intellekt alqoritmi ilə robot çox daha mürəkkəb və maraqlı qərarlar qəbul edə bilər. Qabaqcıl süni intellekt imkanlarına malik bu robotlar, ehtimal ki, hərbi sektorda tədqiqat və inkişaf imkanları üçün istifadə olunacaq robotlardır (11). Düşünürəm ki, dərk etmək məsələsinə xüsusi toxunmalıyıq. Necəki əsərimizdəki klonlarda başlarına gələn hər şeyi dərk edir, anlayır və təhlil edirlər. Bu gün robotlar ən böyük sənaye istehsalındadır. Xüsusilə, avtomobil sənayesində çoxlu sayda robotlardan istifadə edilir. Bunların əksəriyyəti qol şəkilli robotlardır. Bunlar hissələri yığan, qaynaq edən və rəngləyən robotlardır. Evlərdə robotlardan istifadə getdikcə artır. Evlərə girən ilk robotlar FURBY və AİBO kimi oyuncaqlar idi. Ev işlərində kömək edən robotların istifadəsi, xüsusən də ABŞ-da getdikcə daha geniş yayılır. Robotlar onların birgə strukturlarından, istifadə sahələrindən, funksional xüsusiyyətlərindən, idarəetmə üsullarından və iş şəraitindən asılıdır. Prinsiplərinə görə müxtəlif yollarla təsnif edilir. Tarixi inkişaf baxımından bu günə qədər, ümumiyyətlə bu təsnifata baxdığımızda biz sənaye və mobil robotları görürük. "Sənaye Robotlar oynaqların sayına və funksional xüsusiyyətlərinə görə təsnif edilir. Onlar prinsiplərinə, saylarına, ölçülərinə və tətbiq sahələrinə görə təsnif edilirlər. Bu da təsnifatlara əlavə olaraq, həm sənaye, həm də mobil robotlarda uzaqdan insan-robot qarşılıqlı əlaqəsinin müxtəlif növləri istifadə olunur" (3, s. 2).

XX əsrin son rübü-XXI əsrin əvvəllərində istehsal şirkətləri, təkrarlanan əməliyyatlar üçün xüsusi maşınlar təqdim etdi. Bunun nəticəsində sənaye robotlarının və kompüterlə idarə olunan maşınların çevikliyi və sürəti zamanla artdı və xərclər azaldı. Robotlar daha ağıllı və çevik olduqda rəqəmsal avtomatlaşdırmanın əhatə dairəsi də artdı. Süni intellekt və ya maşın öyrənmə alqoritmləri sayəsində robotlar "avtomatlaşdırılmış, proqnozlaşdırıcı və miqyasda proqnozlaşdırıcı" kimi qruplaşdırıldılar. Qərar qəbul etmək qabiliyyəti ilə çoxfunksiyalı oldular (8, s. 3). Robot sensorları ilə ətrafını qavrayan, qavradıqlarını şərh edən, nəticədə qərar verən (süni intellekt), qərarın nəticəsinə görə hərəkət edən, hərəkət orqanlarını hərəkət kimi işə salan və ya dayandıran bir cihazdır. Bu tərifə görə, paralel port vasitəsilə kompüterə qoşulan və klaviaturadan idarə olunan avtomobil robot deyil. Çünki o, özbaşına qərar qəbul etmir, klaviaturada verdiyimiz göstərişləri həyata keçirir. Ancaq eyni avtomobil sensorları ilə qəbul etdiklərini şərh etmək üçün kompüterin mikroprosessorundan istifadə edirsə və öz qərarlarını verə bilirsə və qavrayışlarına görə bizdən asılı olmayaraq, hərəkət edə bilirsə, o, artıq bir robotdur.

Verilən məlumatlara nəzər salan zaman şahidi oluruq ki, klonlaşdırılmış şagirdlər də eynilə robotlara bənzəyirlər. Onlara xüsusi qaydalar qoyulurdu və onlar həyatlarını bu qaydalar üzərində qururdular. Seçim şansları yox idi. Nə qədər duyğuları, hissləri olsa da, özlərini insan kimi görməyə çalışsalarda, "həqiqi" insanlar onları qəbul etmirdi. Həyatları son verdikləri orqandan asılı idi. Necə ki, robotları onların işləkliyi dayanana qədər istifadə edirdilər, həmin klonlaşdırılmış şagirdləri də son donorluqlarına qədər yaşadırdılar: "İnsanlar sizin mövcudluğunuzdan nə qədər narahat olsalar da, öz uşaqlarının, yoldaşlarının, valideynlərinin, dostlarının xərçəngdən, motoneyronlarının çatışmazlığından və ya ürək xəstəliyindən ölməyəcəklərinə görə xeyli rahatlaşmışdılar" (2, s. 317).

Robotlar və klonların yaradılma məqsədləri eyni idi. Hər ikisi isanların istifadəsi

üçün yaradılmışdı. Necə ki, yaradılmış klonun bütün lazımi orqanları çıxarılıb, insanlara həhvil verilirdi, sonra isə bir kənara atılırdı, robotda da həmçinin, bütün enerjisi, işləkliyi bitənə qədər istifadə olunub sonra isə yenisi ilə əvəz olunur. Adi günümüzdəki mobil telefonları buna nümunə göstərə bilərik. Telefonun işləkliyi dayanan kimi insanlar yenisi ilə dəyişirlər. Buda bir növ robot idi. Robot və insanların bu formada istifadəsi posthumanizmdə birləşirdi. Posthumanizm insanların növbəti mərhələyə keçməsi üçün hər şeyi özünə qurban verməsinə qarşı idi. İnsanlarda növbəti mərhələyə keçmək və təkamül etmək üçün klonları və robotları yaratmışdılar. Bu əslində insanlığı məhv etmək demək idi. İnsanlar fərqinə belə varmadan, öz nəslini, soy-kökünü davam etdirmək əvəzinə sonunu da gətirir.

**Nəticə**

Kazuo İşiquronun "Məni heç vaxt tərk etmə" əsəri vasitəsilə biz bir çox məsələlər ilə yaxından tanış olduq. Öncəliklə utopiya və distopiya, klonlama, Heylşem məktəbi, donorluq, insan və robotların müqayisəsi və s. Texnologiya inkişaf etdikcə insanlığının sonunun hara getdiyi naməlum məsələdir. Bəlkə də insanın sonunu elə insana bənzər varlıqlar qoyacaqdır. "Düşünə bilən robotlardan qorxuruq, çünki kifayət qədər yaxşı düşünə bilmədiyimizi bilirik, bizə bənzəyən robotlardan qorxuruq, çünki yetərincə doğru olmadığımızı bilirik, bizdən balaca robotlardan qorxuruq, çünki əsl gücün böyüklükdə olmadığını dərk edirik".

İndiki zamanda yaradılan robotların reaksiya vermək, danışa bilmək, əsəbiləşmək, gülmək, hətta rəqs etmək kimi insani bacarıqları varsa, əsərdəki klonlaşdırılmış donorlarında bu kimi xüsusiyyətləri vardır. İnsanlar belə robotlardan qorxub, dünyanı məhv edəcəyi qənaətinə gəlirlər, əsərdə də "həqiqi" insanlar klonlaşdırılmış şagirdlərdən qorxub, çəkinirlər. Ancaq onuda qeyd etmək yerinə düşərdi ki, əsl insan deyə bir şey yoxdur. Hər hiss edən, düşünən, yaradan, ağlayan, gülən varlıq insan deyil. Həqiqi insan yaxşılıq edən, əziyyət çəkən, ona edilən yaxşılığı görübdə dəyər verən, yardım edən insanlardır. Klonlaşdırılmış insanlar bu xüsusiyyətlərə sahib idilər. Əslində insanların qorxmalı olduğu şey robotların onları üstələyəcəyi qorxusu deyil, insanların artıq robotlaşacağı qorxusu olmalıdır. Günümüzdə isə hər gün eyni alqoritmdə davam edən yaşam kimi artıq insanlar robotlar ilə eyni taleni paylaşır.

## ƏDƏBİYYAT


1. Babayev H. Biotexnoloji və biotibbi fəaliyyətin nəticəsi kimi klonlaşdırmanın anlayışı və tənzimetmə əsasları // İnjuria jurnalı. Bakı, 4 yanvar 2021, 2 s. Elektron resurs: (https://www.injuria.az/news/biotexnoloji-ve-biotibbi-fealiyyetin-neticesi-kimi-klonlasdirmanin-anlayisi-ve-tenzimetme-esaslari).
2. İşiquro K. Məni heç vaxt tərk etmə. Bakı: TEAS Press Nəşriyyat evi, 2017, 348 s.
3. Gürgüzel G. Kullanım Alanlarına Göre Robot Sistemlerinin Sınıflandırılması // Elazığ: Fırat Üniversitesi, 14 s. (Received: 15.03.2018).
4. Haydar B, Hakan S. Klonlama // Dergi park. 12.12.2000. 12 s.
5. Korkmaz F. Kazuo Ishiguronun "Beni asla bırakma" ile Çetin Altanın " 2027 yılının anıları" romanlarının distopik açıdan mükayisesi// Dicle Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 8 s. (Received:28.04.2020).
6. Mehtap D. Sinemada Yapay Zekâ: Robotlarda Bilinç, Duygular ve Etik // Ankara: Kültür ve İletişim, 2024, 26 s.
7. Yıldız F. Kazuo İshiguro romanlarında manipülativ anlatıcılar. Dergi park. 2018. № 10, 12 s. 18298/ijlet.2374 10.18298/ijlet.2374 (Received:11.02.2018).
8. Yılmaz F. Robotlar hayatımızda. Gülhane: FSM İlmî Araştırmalar İnsan ve Toplum Bilimleri Dergisi, 12 s. (Received: 21.03.2018).

9. Cusk R. Rereading: Never Let Me Go by Kazuo Ishiguro. The guardian. 20 january 2011. URL: (https://www.theguardian.com/books/2011/jan/29/never-let-me-go-kazuo-ishiguro).
10. Creamer E. Kazuo İshiguro song lyrics collection to be published. The guardian. Thu 14 sep 2023. (https://www.theguardian.com/books/2023/sep/14/kazuo-ishiguro-song-lyrics-collection-to-be-published).
11. https://msnrobot.com/insanab%c9%99nz%c9%99r-robotlar/

***Резюме***

***Матанат Мамедова***

***Идейные характеристики романов К. Исигуро***
***(на материале романа «Никогда не покидай меня»)***

В статье рассматриваются философские и литературные мысли Кадзуо Исигуро, а также жанры его произведений. Упоминаются полученные им награды и его взгляды на жизнь. Кратко анализируется произведение Кадзуо «Никогда не отпускай меня», за которое он получил Нобелевскую премию в 2017 году, клонирование, донорство, душа и эмоции и т. д. «Never Let Me Go» - одно из самых замечательных произведений, написанных в жанре антиутопии. Несмотря на то что события 1990-х годов были записаны, этот процесс, клонирование, довольно распространен и сегодня. И хотя некоторые религии выступают против этого, люди стараются оставить следы на этом пути, насколько это возможно благодаря современным технологиям. События, которые раньше даже не приходили в голову, теперь реализуются благодаря технологиям. Клонированные люди были вынуждены жить в качестве доноров до самой смерти и отдавать свои органы «настоящим» людям. В Хейлшеме студентов готовили к будущему, к донорству. Но они также пытались развивать свой духовный мир. Вот сравнение роботов и клонированных людей. Роботы тоже создаются для того, чтобы служить людям, облегчать их труд. Робот – это устройство, которое воспринимает окружающую среду с помощью датчиков, интерпретирует воспринятое, принимает решение (искусственный интеллект), действует в соответствии с результатом решения и запускает или останавливает органы движения как движение. Согласно этому определению, автомобиль, подключенный к компьютеру через параллельный порт и управляемый с клавиатуры, не является роботом. Поскольку он не принимает самостоятельного решения, а следует инструкциям, которые мы даем на клавиатуре. Но в чем же заключались схожие проблемы клонов и роботов? Почему клоны были обречены жить в той форме, которая им была дана, а не в той, которую они хотели? В современную эпоху технологии и искусственный интеллект развились настолько, что процесс роботизации человека уже начался. Внутренний мир клонов в романе «Никогда не покидай меня» анализируется в этой статье.

**Ключевые слова:** *Кадзуо Исигуро, клонирование, антиутопия, донор, чувство и душа, интеллект, реальный человек*

***Summary***

***Matanat Mammadova***

***Ideal Characteristics of K. İshiguro's Novels***
***(Based on the Novel 'Never Leave Me')***

The article first discusses Kazuo Ishiguro's philosophical and literary thoughts and the genres of his works. The awards he has received and his view of life are mentioned. Kazuo's work 'Never Let Me Go', which won him the Nobel Prize in 2017, cloning, donation, soul and emotion, etc. are briefly analysed. 'Never Let Me Go' is one of the most excellent works written in the anti-utopia genre. Although the events of the 1990s have been recorded, this process, cloning, is quite common today. Although some religions oppose this, people try to leave traces on this path as much as they can thanks to modern technology. Events that would not even come to one's mind before are now realised thanks to technology. Cloned people were forced to live as donors until death and give their organs to 'real' people. In Hailsham, students were prepared for the future, for donation. But they also tried to develop their spiritual world. Here is a comparison of robots and cloned humans. Robots are also created to serve people, to make people's work easier. A robot

is a device that perceives its environment with its sensors, interprets what it perceives, makes a decision (artificial intelligence), acts according to the result of the decision, and starts or stops the movement organs as movement. According to this definition, a car connected to a computer via a parallel port and controlled by a keyboard is not a robot. Since it does not make a decision on its own, it follows the instructions we give on the keyboard. But what were the similar problems of clones and robots? Why were clones condemned to live in the form given to them, not the form they wanted? In the modern age, technology and artificial intelligence have developed so much that the process of robotisation in humans has already begun. The inner world of the clones in the novel 'Never Leave Me' is analysed in this article.

**Keywords:** *Kazuo İshiguro, cloning, dystopia, donor, feel and spirit, intellect, a real person*

Redaksiya heyətinin üzvü fil.e.d., dos. Məmmədova-Kekeç Elmira Fikrət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.